# Uşaqların inkişafında valideynlərlə birgə işin yolları

**Almaz Əhmədova**
*ADPU-nun baş müəllimi*

**Rəyçilər:** ped.ü.f.d., dos. S.Ə. Cəmilzadə,
ped.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** məktəbəqədər dövr, valideyn, uşaq şəxsiyyəti, ailə tərbiyəsi, əməkdaşlıq
**Ключевые слова:** дошкольный этап, родители, личность ребенка, семейное воспитание, сотрудничество
**Key words:** preschool stage, parent, person child, family education, cooperation

Uşaqların həyatının ilk illərində fiziki, əqli, mənəvi, estetik inkişafın düzgün qoyulması, onların məktəbə hazırlanmaları sahəsində istər valideynlərin, istərsə də məktəbəqədər təhsil müəssisələrinin üzərinə böyük vəzifələr düşür.

Uşaqların hərtərəfli inkişaf etdirilməsinə uşaq bağçasının pedaqoji kollektivlərini, valideynləri, ailənin digər yaşlı üzvlərini (baba, nənələri, böyük bacı və qardaşları) təlim-tərbiyə işinə cəlb etməklə uşağın şəxsiyyətinə mütəşəkkil, mütəmadi, məqsədyönlü şəkildə təsir göstərmək əsasında nail olmaq mümkündür.

Bu məqsədə çatmaq üçün valideynlər uşaqların tərbiyəsi sahəsində təlim-tərbiyənin məqsədləri ilə tanış edilməli, bunun üçün isə valideynlərin maarifləndirilməsi qayğısına qalınmalıdır ki, bunu məktəbəqədər təhsil müəssisələri və b. həyata keçirir. Uşaqların hərtərəfli inkişaf etdirilməsini təmin edən şərtlərdən biri də bu prosesdə uşaq bağçası ilə ailənin qarşılıqlı əlaqədə olması, birgə fəaliyyət göstərməsidir. Valideyn və tərbiyəçilərin ümumi səyləri uşaq haqqında məlumatın bölüşməsi, təcrübə mübadiləsi və ən əsası uşağın düzgün böyüməsi və inkişafı üçün daha əlverişli şəraitin təmin etməsi üzrə əməkdaşlıq münasibətlərinin qurulmasına yönəlməlidir.

Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) nəinki uşaqlarla təkcə təlim-tərbiyə işi, eyni zamanda valideynlərlə də geniş iş aparmağı nəzərdə tutur (5).

Valideynlər uşaqların təlim fəaliyyətində iştirak etdikləri təqdirdə onların təlim nailiyyətləri yüksəlir. Valideynlərin tərbiyəçilərlə belə bir əməkdaşlıq şəraitində uşaqların yaş xüsusiyyətləri, onların fəaliyyətlərini stimullaşdıran öyrədici mühitin vacibliyi, fiziki, emosional müdafiənin təmin edilməsi, mühitin təhlükəsizliyinin zəruriliyi, uşaqların fəallığı və təlim-tərbiyə işinin əhəmiyyəti haqqında bir sıra məsələləri bilməsi məqsədəmüvafiqdir.

Valideynlərlə ənənəvi iş formaları ilə yanaşı (pedaqoji şura, dəyirmi masa, konfrans, sərgilər, ailəyə baş çəkmək, valideyn iclası, valideynlərin maarifləndirilməsi, açıq qapı günü və s.) innovativ forma və metodlar da istifadə olunur.

1. Valideynlərin məktəbəqədər təhsil müəssisəsi, onun kollektivi və nizamnaməsi ilə tanışlığı üçün təqdimatın keçirilməsi;

2. Hər bir uşağın şəxsiyyətinin inkişafı üzrə fəaliyyət növlərini fraqmentlərlə göstərmək. Bunun üçün məktəbəqədər təhsil müəssisəsinin rəsmi saytı göstərilir. Bu saytda valideynlər normativ sənədlər, təhsil proqramı və kollektivlə tanış olur, onların işinin təşkilini izləyir.

3. Valideynlərə təlim-tərbiyə mövzusunda elmi-populyar və sənədli filmlər nümayiş etdirmək;

4. Ailənin uşaqla birlikdə qeyri-ənənəvi formada şəkil çəkmələri;
5. "Sağlam həyat tərzi" devizi altında uşaqların valideynlərlə birlikdə idman tədbirlərində iştirakı.
6. Valideynlərlə birlikdə istirahətə, kitabxanaya, muzeyə ekskursiya təşkil etmək.
7. Valideyn və uşaqlar üçün teatr otağı.
8. Ailə görüşləri.
9. İnformasiyaların müəssisənin rəsmi saytı vasitəsi ilə ötürülməsi (3).

Tərbiyəçi gənc valideynlərə ailədə düzgün rejimin qurulması yollarını izah etməlidir. O, həmçinin uşağın məktəbə hansı intellektual hazırlıqla getməli olduğunu da öyrətməlidir. Valideynin psixoloji hazırlığı da tərbiyəçinin valideynə köməyindən asılıdır. Valideyn uşağın yaddaşını, diqqətini, qabiliyyətini, müqayisə etmək, ümumiləşdirmək, nəticəyə gəlmək bacarığını inkişaf etdirməyin yollarını da bilməlidir.

Valideyn uşağa nələri necə oxumaq, onların təfəkkürünü, nitqini necə inkişaf etdirmək, ətraf mühiti öyrənməklə dünyagörüşünü necə genişləndirmək yollarına bələd olmalıdır.

Tərbiyəçilər və müəllimlər ümumi vəzifələrdə, işin ümumi məntiqində uşaqların imkanları haqqında təsəvvürə malik olmalıdırlar.

Tədqiqatlar da müəyən etmişdir ki, valideynlər uşaqların təlim fəaliyyətində iştirak etdikləri təqdirdə onların təlim nailiyyətləri yüksəlir. Belə bir əməkdaşlıq şəraitində tərbiyəçilər valideynlərin aşağıdakı məsələlərlə tanış olmalarını tövsiyə edir:

— uşaqların yaş xüsusiyyətləri;
— təlim-tərbiyə işinin əhəmiyyəti;
— uşaqların öyrədici, fəaliyyətlərini stimullaşdıran mühitin vacibliyi;
— fiziki, emosional müdafənin təmin edilməsi, mühitin təhlükəsizliyinin zəruriliyi;
— uşaqların fəallıq göstərməsi.

Valideynlər öz uşaqlarının təlim fəaliyyətinə kömək etmək və həmin fəaliyyətdə iştirak etmək üçün, onların yüksək təlim nailiyyətləri əldə etmək istəklərini nümayiş etdirə bilərlər. Onlar öz uşaqlarının əqli qabiliyyətləri haqqında tərbiyəçidən məlumat alır, onların təlim nailiyyətlərinə verilən qiyməti daha asan qavrayaraq uşağın irəliləyişini sürətləndirmək məqsədilə müəllimlə əməkdaşlıq edir. Valideyn iclaslarında iştirak, bağça şurasına üzvlük, məktəb həyatı haqqında söhbətlər və birgə mütaliə kimi pedaqoji tədbirlər uşağın təhsilində valideynlərin fəal iştirakını təmin edən çoxsaylı yollarından bəziləridir.

Valideynlərin hərtərəfli müntəzəm pedaqoji maarifləndirməkdə əsas məqsəd odur ki, onlar həm uşaqlarla iş təcrübəsi, həm də nəzəri biliklərin əsası ilə yaxından tanış olsunlar.

Valideynlərlə işin məzmunu uşağın hərtərəfli tərbiyələnməsi və inkişaf etməsi məsələlərini əhatə etməlidir.

Təcrübə göstərir ki, uşağın fiziki inkişafının təmin edilməsi əsas şərtlərdəndir. Valideynlər uşağın sağlamlığının qorunması və möhkəmləndirilməsinə çalışmalıdırlar. Onlar uşağın güclü, dözümlü, fiziki qabiliyyətinin inkişafı və hər hansı xəstəliklərə qarşı müqavimətin artması üçün nə etmək lazım olduğunu bilməlidirlər. Uşaqların fiziki sağlamlığının, uşaq bağçasında zəruri olan bacarıqların formalaşması əzələlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi ilə əlaqədardır. Uşaqların böyük əzələləri daha yaxşı inkişaf etdiyindən özlərini tənzimləməyi bacarır, davranış və hərəkətlərində daha fəal və çevik olurlar. Kiçik əzələlərin inkişafı üçün tərbiyəçi barmaq gimnastikasından, təsviri fəaliyyət növlərindən istifadə etməlidir. Tərbiyəçi uşaqlara qrup otağında, oyun meydançasında, gəzinti zamanı həm böyük, həm kiçik əzələlərdən istifadə etmək imkanına şərait yaratmalıdır. Uşaq öz həmyaşıdları və digər uşaqlarla birgə işləməyə və öz fiziki fəaliyyətini inadkarlıqla yerinə yetirməyə sövq

etdirilməlidir.

Valideynlər uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, təlimdə, problemlərin həllində iştirak etməyə cəlb edilirlər. Valideynlər tərbiyəçilərlə birlikdə inkişafın stimullaşdırılmasında fəal iştirak edir, səy göstərirlər. Bunun üçün, ilk növbədə təlim-tərbiyə prosesində mənimsənilən bilik və bacarıqlar ailədə möhkəmləndirilir. Belə bir qarşılıqlı əməkdaşlıq uşağın əqli fəaliyyətinin zənginləşməsinə, özünəinamın yaranmasına təsir göstərir.

Valideynlərin məktəbəqədər təhsil müəssisələrində uşaqlara milli-mənəvi, ümumbəşəri dəyərlərin aşılanması, eyni zamanda uşaqlarda mənəvi hiss və vərdişlərin formalaşdırılması yolları və şəraiti ilə tanış edilməsi məqsədəmüvafiqdir.

Məktəbəqədər təhsil müəssisələrində valideynlər üçün təşkil olunmuş "Uşaqlar bizim gələcəyimizdir" mövzusunda dəyirmi masadakı müzakirədə valideynlər öz təcrübələrindən, tərbiyəçilərlə görüşlərindən söz açırlar. Uşağa nələri necə oxumaq, onların təfəkkürünü, nitqini necə inkişaf etdirmək, ətraf mühiti öyrənməklə dünyagörüşünü necə genişləndirmək yolları haqqında söhbətlər edirlər. Valideynlər tərbiyəçinin hər bir uşaq üzərindəki işi, eyni zamanda uşağın əsas inkişaf sahələri üzrə irəliləyişi ilə tanış olurlar. Hesabat tərbiyəçi tərəfindən valideynlərə təqdim olunur. Valideynlər öz uşaqlarının bir il ərzində qazandığı nailiyyətləri, bilik və bacarıqları haqqında məlumat əldə edirlər.

Belə görüşlərin tez-tez keçirilməsi və həmin müzakirələrdə valideynlərin tərbiyəçi, həkim, loqopedlə birlikdə müxtəlif məsələlər ətrafında dialoq təşkil olunması məqsədəmüvafiqdir. Tərbiyəçi çalışmalıdır ki, belə görüşlərdə valideyndə nikbin əhval-ruhiyyə yaratsın, bağça ilə ailə arasında əlaqə daha da möhkəmlənsin.

Valideynlərin maarifləndirilməsini təmin etmək üçün uşaq bağçalarında valideyn guşəsinin yaradılmasına və orada işin təşkilinə xüsusi diqqət yetirmək lazımdır. Valideynlər orada xüsusi metodik, psixoloji ədəbiyyatla tanış olmaqla uşaqların hərtərəfli inkişafını təmin etməyin səmərəli yollarını öyrənirlər. Guşədəki sərgidə uşaqlarının əl işləri ilə tanış olan valideynlər uşaqlarının hərtərəfli inkişafının təmin olunması üçün necə hərəkət etməli olduqlarını müəyyənləşdirməyə çalışırlar.

Tərbiyəçi valideynlə bərabər hüquqlu tərəfdaş olmaqla uşaqların inkişafyönümlü xoşbəxt uşaqlığını təmin edən tərəfdir. Müşahidələr göstərir ki, valideynlərin çoxu konkret kömək istəyir. İnamlı əməkdaşlıq və qarşılıqlı təsirdə tərbiyəçi həmin köməyin mənbəyi ola bilər. Tərbiyəçinin hər bir ailəyə differensial və fərdi yanaşması mümkündür. Ailənin həyat tərzinin öyrənilməsi tərbiyəçi və valideynlərin qarşılıqlı marağı üzərində qurulmalıdır. Hər bir uşağa fərdi yanaşmanın həyata keçirilməsində ailənin rolunun aşkarlanması və bu məsələ üzrə uşaq bağçası ilə ailənin səyi əhəmiyyətlidir. Valideynlərlə ünsiyyətin texnikasını bilmək faydalıdır.

**Məqalənin aktuallığı.** Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. Uşaqların ailədə tərbiyəsi valideynlərin uşağın sosiallaşdırılması üçün ailənin həyata keçirdiyi xüsusi pedaqoji fəaliyyətdir.

**Məqalənin elmi yeniliyi.** Məktəbəqədər yaşlı uşaqların mühakimələri və həyat hadisələrinə olan münasibətləri başlıca olaraq valideynlərin və tərbiyəçilərin mühakimə və davranışları əsasında yaranır. Ona görə də təlim-tərbiyə işində ailə ilə birgə iş mühümdür.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Kiçik məktəbyaşlı uşaqların iradəsi kifayət qədər inkişaf etmədiyinə görə onun iradəsini tərbiyə etmək böyük rol oynayır. Bu yaşda olan uşaqların gün rejiminin həyata keçirilməsində valideynin məktəblə müntəzəm əlaqə saxlaması və valideynlərin pedaqoji biliklərə yiyələnməsindən çox asılıdır.

## Ədəbiyyat

1. “Azərbaycan Respublikasının Konstitusiyası”. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 31 iyul 1997-ci il, № 1.

2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: Nağıl evi, 2002,144 səh.

3.Baxışova Ş.A. Məktəbəqədər təhsil: konseptual problemlər (monoqrafiya). Bakı, Elm və təhsil, 2015, 308 səh.

4. Tusi N. Əxlaqi-Nasiri. Bakı: elm, 1989, 256s.

5. Azərbaycan respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, 2014, 96səh.

**А. Ахмедова**

## Роль родителей в формировании личности ребенка

## Резюме

В статье характеризуются вопросы, связанные с формированием личности ребенка на уровне современных требований. Рассматриваются рациональные пути и возможности формирования личности детей. Отмечается важная роль совместных действий родителей и педагогов при такой работе. Указывается, что формирование личности непосредственно связано с системой общественного отношения к вопросу. Отмечаются исследования, которые конкретно связаны с реализацией данной проблемы.

**A. Axmadova**

## The role of parents in shaping child's personality

## Summary

The article explores the issues related to the formation of a child in accordance with modern requirements. Discusses rational ways of forming personality of children. The importance of joint actions of parents and teachers in this work. Indicates that personality formation is directly related to the system of public attitudes on the issue. There are studies that relate specifically to the implementtation of this problem.

**Redaksiyaya daxil olub:** 21.05.2018